# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

14 (132) 10 avqust 2019-cu il İctimai-siyasi qəzet


# Prezident İlham Əliyev Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olub

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verdi.

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyevin “Bakı şəhərinin Pirallahı rayonunda tikinti-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci ildə imzaladığı Sərəncama əsasən rayon icra hakimiyyəti üçün dördmərtəbəli bina inşa olunub. Binada operativ-idarəetmə, vətəndaşların qəbulu, iş otaqları, akt və konfrans zalları, kitabxana və digər zəruri otaqlar var. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub.




Yeni binada yaradılan şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu bir daha təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan bu bina rayonun görkəminə də xüsusi gözəllik verir. Rayon icra hakimiyyəti üçün inşa olunan binanın ətrafında genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, fəvvarə quraşdırılıb, işıqlandırma sistemi yaradılıb, mindən çox ağac və gül-çiçək əkilib, yaşıllıq zolağı salınıb.

# Bakıda “Dəniz kuboku-2019” beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib

Avqustun 5-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində “Beynəlxalq Ordu Oyunları–2019” çərçivəsində Bakıda təşkil edilən “Dəniz kuboku-2019” beynəlxalq yarışlarının təntənəli açılış mərasimi keçirilib.

Açılış mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi, veteranlar, hərbçilər, iştirakçı dövlətlərdən başqa, müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı qüvvələrinin nümayəndələri, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri və digər qonaqlar iştirak ediblər.




Mərasimin aparıcıları Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Rəna Qurbanova və Mixail Sklyamin Azərbaycanda keçirilən bu yarışın əhəmiyyətini yüksək dəyərləndiriblər. Aparıcılar “Dəniz kuboku-2019”-un Xəzəryanı ölkələr arasında əməkdaşlığın inkişafında rolundan danışıblar.

Sonra “Dəniz kuboku-2019” müsabiqəsinin hakimlər briqadası və komandalar mərasimə dəvət olunub.

Müsabiqə iştirakçıları - Rusiya Federasiyası Xəzər flotiliyasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Hərbi Dəniz qüvvələrinin komandaları dövlət bayraqları altında və hərbi orkestrin müşayiəti ilə meydana daxil olublar. Mərasimdə müsabiqəyə ev sahibliyi edən Azərbaycanın dövlət himni ifa edilib, üçrəngli bayrağı qaldırılıb.

Beynəlxalq Ordu Oyunlarının və “Dəniz kuboku-2019” müsabiqəsinin bayraqları mərasimə gətirilib. Sonra Beynəlxalq Ordu Oyunlarının və “Dəniz kuboku-2019” müsabiqəsinin bayraqları dalğalandırılıb. Daha sonra “Dəniz kuboku-2019” müsabiqəsinin baş mükafatı - kubok meydana gətirilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev mərasim iştirakçılarını və qonaqları salamlayıb, onlara Müdafiə nazirinin təbrikini çatdırıb. Kərim Vəliyev bildirib ki, Beynəlxalq Ordu Oyunları hərbi əməkdaşlığın, hərbçilər arasında dostluğun möhkəmləndirilməsi, peşəkarlığın daha da artırılması məqsədinə xidmət edir. Azərbaycan Ordusu Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsünə qoşularaq müxtəlif yarışlarda uğurla iştirak edir. Hər il bu yarışlara maraq artır və onun coğrafiyası daha da genişlənir. Builki Beynəlxalq Ordu Oyunları 10 dövlətin ərazisində, eləcə də Azərbaycanda keçirilir. 32 müsabiqədə 5 mindən artıq hərbçi gücünü sınayır.

O deyib: “Artıq üçüncü ildir ki, Xəzər dənizindəki Azərbaycan ərazi sularında yarışırsınız. Xəzər dənizi tarixən sahillərində yaşayan bütün xalqların ümumi sərvəti olub. Dostluq, qardaşlıq dənizi olan Xəzərin təhlükəsizliyini təmin etmək hər birimizin borcudur. Əminəm ki, “Dəniz Kuboku” müsabiqəsi ölkələrimiz arasında qarşılıqlı əlaqələrin, əməkdaşlığın daha da gücləndirilməsinə öz töhfəsini verəcək. İnanıram ki, yarışlar hamınızın yaddaşında silinməz iz buraxacaq, Azərbaycandan xoş təəssüratlarla ayrılacaq və bu diyara qayıtmaq arzusu ilə yaşayacaqsınız. Sizi bir daha səmimi qəlbdən salamlayır, komandalara yüksək nəticələr və uğurlar arzulayıram. Hansı ölkənin komandasının



birinci yeri tutmasından asılı olmayaraq bizim dostluğumuz, qardaşlığımız, həmrəyliyimiz qələbə çalacaq".

Kərim Vəliyev “Dəniz kuboku” beynəlxalq müsabiqəsini açıq elan edib.

Mərasimdə incəsənət ustalarının, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin, iştirakçı ölkələrin və Rusiya Federasiyasının mahnı və rəqs ansamblllarının iştirakı ilə teatrlaşdırılmış kütləvi bədii proqram təqdim olunub.

“Dəniz kuboku-2019” beynəlxalq yarışlarının açılışına həsr olunmuş təntənəli mərasimin ssenari müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbanidir.



Qeyd edək ki, Azərbaycan hərbçiləri avqustun 3-dən 17-dək 10 dövlətin ərazisində keçiriləcək “Beynəlxalq Ordu Oyunları-2019” yarışlarında ölkəmizi təmsil edirlər.

Azərbaycan hərbçiləri ölkəmizdə “Dəniz kuboku”, Rusiyada “Tank biatlonu” və “Səhra mətbəxi”, Qazaxıstanda “Artilleriya atəşinin ustaları”, Belarusda “Snayper həddi” və Özbəkistanda təşkil olunan “Hərbi-tibbi estafet” müsabiqələrinə qatılıblar.

“Dəniz kuboku-2019”-da hərbi dənizçilər “Artilleriya atışlarının yerinə yetirilməsi”, “Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı” və “Dəniz hazırlığı” üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyənləşdirəcəklər.

Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin nümayəndələri “Dəniz kuboku - 2019” müsabiqəsində müşahidəçi qismində iştirak edirlər.

AZƏRBAYCAN VETERANI

# Azərbaycan dövləti vətəndaşlarının rifahını daim diqqət mərkəzində saxlayır

Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu bütün sahələrdə davamlı inkişafın bir-birini əvəzləməsindən xəbər verir. Dünyaya nümunə olan Azərbaycanın sosial-iqtisadi inkişaf modeli vətəndaşların sosial rifahına və cəmiyyətin inkişafına istiqamətlənib. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər əsaslı təməllər üzərində dayanır. Sosial-iqtisadi sahədə müdafiənin gücləndirilməsi milli təhlükəsizliyinin bütün sahələrinin yüksək təminatının bariz göstəricisidir.

Bu fikirləri Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov AZƏRTAC-a müsahibəsində söyləyib.



C.Xəlilov bildirib ki, Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə səsləndirilən fikirlər reallığı olduğu kimi əks etdirməklə yanaşı, qısa müddətdə yeni nailiyyətlərində əldə ediləcəyindən xəbər verir. Sosial sahədə atılmış addımlar dörd milyondan çox vətəndaşı əhatə edir. Bu ilin birinci yarısında Prezident İlham Əliyevin imzaladığı sərəncamlar hər bir vətəndaşın maddi rifah halının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə və onlara dövlət qayğısının daha da artırılmasına xidmət edib. Əməkhaqlarının əhəmiyyətli dərəcədə artımı əhalinin sosial iqtisadi vəziyyətinə müsbət təsir etməklə, iqtisadi fəallığa töhfə verəcək. Dövlətimizin başçısının qeyd etdiyi sosial sahənin prioritetliyi məsələsi və hər zaman bu sahənin diqqət mərkəzində olması danılmaz faktdır. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir. Qürurla deyə bilərik ki, 2019-cu ili respublikamız üçün əlamətdar illərdən hesab edilməlidir. Azərbaycanın siyasəti xətti isə sosial-yönümlüdür.

“Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirə sübut edir ki, ümumilikdə 2019-cu ildə imzalanan qanunvericilik aktları pensionerlərin, əlillərin, müharibə veteranlarının, aztəminatlı ailələrin həyatında müsbət dəyişikliklərə səbəb olub. Keçirilən müşavirə bu sahədə həyata keçirilən islahatların nəticələrinin daim izlənməsinin və diqqət mərkəzində olmasının təsdiqidir. Bütün bunlar, ilk növbədə, Azərbaycanda xalq-dövlət birliyindən, inkişaf etmiş, rəqabətə davamlı iqtisadiyyatdan xəbər verir”, - deyə Cəlil Xəlilov vurğulayıb.

Sədr müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti veteranlar da daim dəstəkləyirlər. Xüsusən sonuncu müşavirədə səsləndirilən fikirlər sosial sahədə əhəmiyyətli irəliləyişlərin olduğunu göstərir və xalqın hər bir nümayəndəsi kimi veteranlarda da gələcəyə yüksək inam ifadə edir. Odur ki, veteranlar xalqın birliyi və gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi işində bundan sonra da əllərindən gələni əsirgəməyəcəklər.

# “Ermənistana qarşı siyasi, iqtisadi, hərbi sanksiyalar tətbiq olunmalıdır”

*Cəlil Xəlilov: “Minsk qrupu, BMT və aparıcı dövlətlər Paşinyanın təxribat xarakterli bəyanatına münasibət bildirməlidir”.*

*“Düşmən bizi məcbur edir ki, Qarabağ problemini hərbi müstəvidə həll edək”.*

Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndinə sonuncu səfəri əsnasında Qarabağın Ermənistana məxsusluğu ilə bağlı səsləndirdiyi fikirlər Azərbaycanda ciddi rezonansa səbəb olub. Baş verənləri rəsmi İrəvanın növbəti həyasızlığı kimi dəyərləndirən bəzi siyasətçilər, partiya sədrləri və vətəndaş cəmiyyəti nümayəndələri məlum bəyanatdan sonra Azərbaycanın Qarabağ probleminin həllində daha sərt addımlar atmasının vacibliyini vurğulamaqdadır.

-Cəlil müəllim, öncə Paşinyanın məlum bəyanatı ilə bağlı fikrinizi bilmək istərdik. Sizcə Paşinyanın Qarabağı Ermənistan ərazisi adlandırmasından sonra beynəlxalq təşkilatlar, xüsusilə də BMT və ATƏT işğalçı ölkə ilə bağlı hansı addımlar atmalıdır?

-Hər şeydən əvvəl, ATƏT-in Minsk qrupuna həmsədrləri Paşinyanın bəyanatına çevik şəkildə münasibət bildirməlidirlər. Bu bəyanat sübut edir ki, Ermənistan heç də problemin sülh yolu ilə həllinə maraq göstərmir, təxribatçı fikirlərlə həm beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır, həm də danışıqlardan yayınmağa cəhd göstərir.

Paşinyan dünya ictimaiyyətinin gözü qarşısında tarixi həqiqəti inkar edərək Qarabağın Ermənistana məxsusluğunu iddia edir. Bununla bir daha sübut edir ki, Qarabağ probleminin arxasında məhz Ermənistan dayanır. Paşinyan sözdə Qarabağ probleminin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirsə də, əməli baxımdan separatçı mövqe tutub və işğalçılıq siyasətindən əl çəkmək istəmir. Odur ki, dünyanın aparıcı dövlətləri, xüsusilə də Rusiya, ABŞ və Fransa, eləcə də BMT, ATƏT baş verənlərə münasibət bidirilməlidirlər.

-Xankəndi olayları Paşinyan və onun rəhbərlik etdiyi hökumətə qarşı cəza xarakterli hansısa sanksiya və qadağaların tətbiqini aktuallaşdıra bilərmi?

-Təbii. Hesab edirəm ki, Paşinyan hökumətinə qarşı xüsusi sanksiyalar tərbiq edilməlidir. Onun bu addımına hüquqi qiymət verilməlidir. Paşinyan beynəlxalq təşkilatlar tərəfindən də qınaq hədəfinə çevrilməlidir. İrəvana qarşı siyasi, iqtisadi və hərbi sanksiyalar tətbiq olunmalıdır. Erməni separatçılarının işğaldakı torpaqlardan çıxarılması üçün ölkəmizə dəstək verilməlidir. Bütün bu addımların atılması işğalçının cəzalandırılması, işğala məruz qalan ölkənin hüquqlarının qorunması baxımından zəruridir.



-Sizcə Ermənistanın bütün region üçün təhlükə doğuran təxribatçı bəyanatlarına Azərbaycana qonşu olan dövlətlərin də münasibət bildirməsi məntiqli olmazmı?

-Şübhəsiz. Baş verənlərə qonşu ölkələr də münasibət bildirməli, öz mövqelərini açıq şəkildə ortaya qoymalıdırlar. Ermənistanla siyasi-iqtisadi əlaqələrə malik olan İran və Rusiyanın belə bir mövqe ortaya qoyması xüsusilə vacibdir. Onlar erməni separatçılarına qarşı mübarizədə ölkəmizə dəstək verməli, ədalətin yanında yer almalıdırlar. Aparıcı dövlətlər də bu məsələdə susqunluq sərgiləməməlidir.

Maraqlıdır, aparıcı dövlətlərin ərazisində hansısa xalq özünə ikinci bir dövlət yaratmaq istəsə, onların reaksiyası necə olar? Onlar buna razı olarlarmı? Əlbəttə, olmazlar! Əgər olmazlarsa, o zaman niyə Azərbaycanın haqlı mövqeyinə, haqlı tələbinə dəstək vermirlər? Onlar unutmasınlar ki, Qarabağ gərginliyi alovlana və beynəlxalq münaqişəyə çevrilə bilər. Bu isə bütün region, bütün dünya üçün ciddi təhlükə deməkdir.

-Respublika Veteranlar Təşkilatı olaraq Paşinyanın təxribatçı bəyanatı ilə bağlı hansı addımlar atmağı düşünürsünüz?

- Biz bununla bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayacaq, bəyanatlarla çıxış edəcəyik. Tələb edəcəyik ki, təcili olaraq aparıcı dövlətlər, beynəlxalq təşkilatlar bu məsələyə münasibət bildirsinlər. Ermənistanı işğalçılıq iddiasından əl çəkməyə vadar etsinlər.

-Paşinyanın sözügedən bəyanatından sonra Azərbaycan cəmiyyətində müharibə çağırışlarının artması müşahidə edilir. Sizcə düşmənin öz işğalçılıq mövqeyində təkid etməsi, ölkəmizlə bağlı yeni təxribatlara əl atması Azərbaycanı Qarabağ probleminin həllində sülh variantından imtina etmək, müharibə variantına əl atmaq məcburiyyəti ilə üz-üzə qoya bilərmi?

-Əslində Ermənistan Azərbaycanı məcbur edir ki, danışıqları dayandırıb torpaqların hərbi yolla azad edilməsi istiqamətində addımlar atsın. Azərbaycanın öz torpaqlarının sahibi kimi belə bir addım atmağa hüququ var.

Azərbaycan sülhməramlı ölkədir. Ölkəmizdə müxtəlif xalqların nümayəndələri ilə yanaşı, ermənilər də yaşayır. Onlar dövlət orqanlarında da təmsil olunur. Lakin Azərbaycan ərazisində yaşayan hər kəs Azərbaycan qanunlarına əməl etməli, konstitusiyamızın tələblərini yerinə yetirməlidir.

Xalqın səbri tükənib. Biz problemin sülh yolu ilə həllinə nail olmaq üçün beynəlxalq hüquq və praktikanın bütün imkanlarından istifadə etmişik. Ölkə başçımız problemin danışıqlar yolu ilə həllinə böyük qüvvə və enerji sərf edib. Bütün imkanlardan istifadə olunub ki, problem sülh yolu ilə həll edilsin. Lakin görünən odur ki, Ermənistan hələ də öz işğalçılıq siyasətindən əl çəkməyib.

Ermənistan bununla beynəlxalq hüquqi normaları təhlükə altında qoyur, bunu qəbul etmədiklərini göstərirlər. Bu isə Azərbaycanın səbrini daşırmaqdadır. Odur ki, əgər Ermənistan təxribatlarından əl çəkməzsə, bu, Azərbaycanı Qarabağ probleminin həllini fərqli müstəviyə daşımaq məcburiyyəti ilə üz-üzə qoya bilər.

*Seymur ƏLİYEV*

## İki dəfə həbs olunan, sürgündə işgəncələr görən "Xalq düşməni" olduğu üçün həyat yoldaşından və qızından ayrı düşən, 26 yaşında AXC naziri olan, Mircəfər Bağırovun güllələyərək qətlə yetirdiyi Əhməd bəy Pepinov(Ömərbəyov)...

1893-cü ildə Gürcüstanda 5 uşaqlı ailədə anadan olub. Dayısı Ömər Faiq Nemanzadə onu himayəsinə götürüb. 1900-cü ildə Ömər Faiq Şamaxıya köçəndə onu da özü ilə aparır. Əhməd bəy Tiflis gimnaziyasında oxuyanda Ömər Faiq onu ən yaxın dostu Cəlil Məmmədquluzadəyə tapşırır.

Pepinovların əsl soyadı Ömərbəyovlar olub. 1917-ci ildə Gürcüstanda əhali siyahıya alınanda gürcülərin sayını çox göstərmək üçün insanlardan xəbərsiz soyadları dəyişdirilirdi. Bu səbəblə də Ömərbəyovların soyadı Pepinov kimi göstərilir.

Əhməd bəy Moskva Dövlət Universitetinin Hüquq və İqtisadiyyat fakültəsini bitirir. 6 dil bilən Əhməd bəy 1917-ci ildə "Hümmət" Təşkilatına qoşulur. Azərbaycan Demokratik Cümhuriyyəti Parlamentinin üzvü və katibi olur. 26 yaşlı Əhməd bəyi AXC-nin Əmək və Ziraət naziri təyin edirlər. 1924-cü ildə Əhməd bəy AXC parlamentinin sədr müavini Həsən bəy Ağayevin qızı Xurşid xanımla ailə qurur, Sevda adlı qızları doğulur.

Sovet dövründə Əhməd bəy Xalq maarif Komissarlığında çalışır. O, latın qrafikalı əlifbanın ilk yaradıcılarındandır. 1930-cu ilin dekabrında 37 yaşlı Əhməd bəy əksinqilabı və antisovet təşkilatı olan "Azərbaycan Milli Mərkəzi" ilə əlaqədə günahlandırılaraq həbs edilir. 3 gün sonra ailəsi yaşadığı evdən çıxarılır və mülkləri müsadirə olunur. Həmin ev NKVD müstəntiqi Xoren Qriqoryana verilir. 1931-ci ildə isə Əhməd bəyin güllələnməsinə əmr verilir. Amma cəzası 10 il həbs, sonra isə 5 il sürgünlə əvəz edilir. Sürgündə işgəncələr verildiyi üçün səhhətində problemlər yaranır. Ailəsi təqiblərə məruz qalmasın deyə Əhməd bəy həyat yoldaşı Xurşid xanıma boşanmağı təklif edir. Xurşid xanım boşanaraq professor Bahadur Eyvazovla ailə qurur. Qızları Sevda "Xalq düşməni"nin qızı olduğu üçün Xurşid xanım qızı Sevda ilə görüşmür. Uşağa Əhməd bəyin qayınanası Xədicə xanım baxır. 1935-ci ildə sürgün həyatı bitən Əhməd bəy Bakıya qayıdır. Mircəfər Bağırov onu NKVD-yə çağırıb ona əməkdaşlıq təklif edir.



Əhməd bəy bundan canını qurtarmaaq üçün Bakıdan getməli olur. Amma o, sonunun necə olacağını hiss edirdi. 1937-ci ildə Moskvada sonuncu dəfə qızı Sevda ilə görüşür. Həmin ildə həbs edilərək yenidən Bakıya gətirilir. Yenə də millətçi, əksinqilabçı şəxslərlə əlaqədə günahlandırılır. NKVD-də şəxsən onu Mircəfər Bağırov sorğu-sual edir. "Mən həmişə namuslu yaşamışam, elə də yaşayacağam" – bu sözləri ilə Mircəfər Bağırovu hövsələdən çıxarır. 1938-ci ilin 3 iyulunda Mircəfər Bağırov onu şəxsən özü güllələyir. Əhməd bəyin qızı Sevda xanım sonradan aktyor Lütfəli Abdullayevlə ailə qurur.

# Xəlil bəy Xasməmmədov

***Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi və dövlət xadimlərindən, Gəncədə "Türk Ədəmi-Mərkəziyyət partiyasının yaradıcılarından Xəlil bəy Xasməmmədov***

Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov 1873-cü il, oktyabr ayının 25-də Gəncədə anadan olub. Gəncə klassik gimnaziyasında orta təhsil almışdır. 1895-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirib. Yekaterinodar (indiki Krasnodar) və Yelizavetpol (Gəncə) dairə məhkəmələrində işləmişdir. "İttifaqi-müslimin" təşkilatının din və hüquq komissiyalarının üzvü olmuşdur. 1907-ci ildə Yelizavetpol quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmişdir. Xəlil bəy Xasməmmədov Fətəli xan Xoyski ilə birlikdə Dumanın milli-dini bərabərlik komissiyasının, Dumanın ikinci şöbəsinin və beş komissiyasının üzvü olmuş, xalq azadlığı partiyasını təmsil etmişdir. Özlərini "solların gənc tatar partiyasına" aid edən Xoyski və Xasməmmədov fraksiyanın proqramını "Varlılar və zadəganlar üçün" nəzərdə tutulduğundan, tam şəkildə qəbul etmirdilər. Xasməmmədov Dumanın müsəlman fraksiyasının iclasında amnistiya məsələsini qaldırmış və onun qanunvericilik yolu ilə keçirilməsini təklif etmişdi. 3-cü Dövlət dumasında (1907-12-ci illər) Xasməmmədov Azərbaycanı təmsil edən yeganə deputat idi. O, Dumanın imperatora müraciət hazırlanması, sorğular, köçürmə işi, məhkəmə islahatı üzrə komissiyaların üzvü idi. Xəlil bəy Xasməmmədov Qafqaz müsəlmanlarının mənafeyini müdafiə edərək Duma deputatlarına bəyan etmişdi ki, "dövlətimizin siyasi quruluşunun bu və ya başqa cür adlanması qətiyyən vacib deyil, bu siyasi quruluşun tələbatımızı, istəklərimizi yerinə yetirməyə qadir olan məzmunu bizim üçün daha vacibdir". Xasməmmədov Dumanın iki illik fəaliyyəti dövründə müsəlmanların hüquqlarının imperiyanın əsas əhalisi ilə bərabərləşdirilməsi, onların maariflənməsi, rifahının yüksəldilməsi üçün heç bir iş görülmədiyini Duma üzvlərinin nəzərinə çatdırmış, kəndlilərin torpaq azlığından əziyyət çəkdiyini vurğulamışdır.

Xasməmmədov Dumanın bütün fəaliyyəti dövründə müxtəlif sorğular və məsələlər üzrə (ədalətli idarəçilik, yerli əhaliyə torpaq verilməsi, xalq təhsili, hərbi mükəlləfiyyət, seçki, dini etiqad, zemstvə idarələrinin tətbiqi, yerli məhkəmənin dəyişdirilməsi və s.) çıxış etmişdir. Xalq təhsili məsələləri barədə çıxışlarında Xasməmmədov ibtidai məktəbdə ana dilində təhsili müdafiə etsə də, "dövlət dilini bilməyi zəruri" sayırdı. Xasməmmədov Zaqafqaziya (Qori) seminariyası Azərbaycan şöbəsinin Yelizavetpola (Gəncəyə) köçürülməsi və onun müstəqil seminariyaya çevrilməsi barədə Xalq Maarifı Nazirliyi qarşısında vəsatət qaldırmışdı. O, 1911-ci il noyabrın 30-da hərbi mükəlləfiyyət barədə qanun layihəsi üzrə çıxış edərkən hərbi mükəlləfiyyətin müsəlmanlara da şamil olunmasını tələb etmişdi.

Xasməmmədov 1913-1917-ci illərdə Yelizavetpol şəhər bələdiyyə rəisi işləmişdir.



1917-ci il Fevral inqilabından sonra Gəncədə "Türk Ədəmi-Mərkəziyyət partiyasının yaradıcılarından biri, 1917-ci ildə keçirilmiş Qafqaz (Bakı, aprel) və Ümumrusiya (Moskva, may) müsəlmanları qurultaylarının iştirakçısı olmuşdur. "Müsavat" partiyasının birinci qurultayında (Bakı, 1917-ci il, 26-31 oktyabr) Mərkəzi Komitənin üzvü seçilmişdir. Xasməmmədov Azərbaycan milli hərəkatının rəhbərlərindən biri, Yelizavetpol Qəza İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya komissarlığında Dövlət nəzarəti komissarı, Zaqafqaziya seyminin, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918-ci il, 26 may) sonra Azərbaycan Milli Şurasının (1918-ci il, 27 may) üzvü olmuşdur. O, 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinə daxil idi.

X.Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci Hökumət kabinəsində ədliyyə naziri, 2-ci kabinədə əvvəlcə portfelsiz nazir, 1918-ci il 6 oktyabr kabinədaxili dəyişikliklərdən sonra ədliyyə naziri, 3-cü kabinədə daxili işlər naziri, 5-ci kabinədə ədliyyə naziri vəzifələrində çalışmışdır. "Müsavat" partiyasından Azərbaycan Parlamentinin üzvü idi. X.Xasməmmədov Azərbaycan nümayəndə heyətinin tərkibində Cənubi Qafqaz respublikaları konfransında (1919-cu il, aprel-iyun) iştirak etmişdir.

Xasməmmədov 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə səfiri təyin olunmuşdu. Aprel işğalından (1920) sonra Azərbaycana qayıtmamış, İstanbulda yaşamış, coşğun siyasi-publisistik fəaliyyət göstərmiş, "Yeni Qafqasya" (1923-1927), "Azəri-türk" (1928-1931), "Odlu yurd" (1920-1930), "Azərbaycan yurd bilgisi" (1932-ci ildən nəşr olunub) jurnallarında, Parisdə fransızca çıxan "Prometey" (1929-1938), rusca "Kavkaz" (1932-1938), Berlində Azərbaycan türkcəsində nəşr edilən "İstiqlal" (1932-1934) və "Qurtuluş" (1934-1938) qəzet və jurnallarında siyasi məzmunlu məqalələr dərc etdirmişdir.

Xasməmmədov Azərbaycan Milli Mərkəzi (1924-cü il, İstanbul) Mərkəzi Komitəsinin və "Müsavat" partiyası xarici bürosunun (İstanbulda fəaliyyət göstərirdi) 3 nəfərdən (Məhəmməd Əmin Rəsulzadə - sədr, Mirzə Bala Məmmədzadə - katib və Xəlil bəy Xasməmmədov - xəzinədar) ibarət rəyasət heyətinin üzvü idi. 1930-cu illərin əvvəlində Milli Mərkəz və Xarici Büro daxilindəki ixtilafların dərinləşməsi Azərbaycan siyasi mühacirətinin parçalanması ilə nəticələndi. Mustafa bəy Vəkilov, Şəfi bəy Rüstəmbəyli və digərləri ilə birlikdə Xasməmmədov M.Ə.Rəsulzadəyə qarşı müxalif mövqedə dayanırdı. Sovet hökumətinin təzyiqi ilə M.Ə.Rəsulzadə Türkiyəni tərk etdikdən sonra Xəlil bəy, Şəfı bəy Rüstəmbəyli və başqalarının Avropadakı mərkəzdən göstəriş almadan, müstəqil fəaliyyət göstərmək meyli gücləndi. Nəticədə, Milli Müsavat Xalq Partiyasının konfransında (avqust 1936-cı il, Varşava) Xəlil bəy Xasməmmədov partiya sıralarından xaric edilmişdi.

Azərbaycanın bütün Qafqazın türk-müsəlman xalqları ilə sıx birliyinin qızğın tərəfdarı olan Xasməmmədov Azərbaycan və Şimali Qafqaz mühacirləri tərəfindən yaradılmış "Azərbaycan-Dağlılar birliyi" adlanan qurumun ilk sədri seçilmişdi. 1942-ci ilin yazında Almaniyanın Xarici İşlər Nazirliyi xətti ilə Berlinə görüşə dəvət edilmiş tanınmış Qafqaz siyasi mühacirləri sırasında Xəlil bəy Xasməmmədov da olmuşdur. Xəlil bəy Xasməmmədov 1947-ci ildə İstanbulda vəfat edib və Fəri Köy məzarlığında dəfn olunub.

AZƏRBAYCAN VETERANI

# SOVET İTTİFAQI QƏHRƏMANI MAYOR MÜSEYİB ALLAHVERDİYEV

Faşizm üzərində Qələbənin 75 illiyi yaxınlaşdıqca, Böyük Vətən müharibəsində alman faşistlərinə qarşı vuruşan Azərbaycanımızın rəşadətli oğul və qızlarının cəbhədə göstərdiyi igidliklər qəlbimizdə fərəh və qürur hissi doğurur. Xalqımızın iftixarı olan, Azərbaycanın hərb tarixinə qızıl səhifələr yazmış, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş azərbaycanlı döyüşçülərimizin və hərb xadimlərimizin döyüş yollarına nəzər salmaq, həmin ənənəni gənc nəslə çatdırmaq bizim vətəndaşlıq və mənəvi-əxlaqi borcumuzdur.

Azərbaycanın belə cəsur oğlanlarından biri də müharibənin əvvəlindən sonuna qədər odlu-alovlu yollar keçən, may ayında anadan olmasının 105 illiyini qeyd etdiyimiz mayor, Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevdir. 1909-cu ilin may ayında Qazax rayonunun Dağkəsəmən kəndində dünyaya göz açmış Müseyib Allahverdiyev 1931-ci ildə könüllü olaraq sovet ordusunda hərbi xidmətə başlamışdır. Serqo Orconikidze adına Azərbaycan diviziyasında xidmət edərkən, hərb sənətinə marağını, komandir qətiyyətinə malik olduğunu görən hərbi hissə rəhbərləri onu 1933-cü ildə hərbi və siyasi hazırlıq əlaçısı kimi Tiflisdəki hərbi məktəbə göndərməyi məsləhət bilmişlər. 1936-cı ildə həmin məktəbi bitirən gənc leytenant orduda siyasi komandir kimi xidmətə başlamışdır. Qeyd edək ki, M.Allahverdiyev həmin məktəbi bitirən ilk azərbaycanlılardan biridir.

1941-ci ilin iyul ayından isə Böyük Vətən müharibəsi cəbhələrində vuruşmuşdur. İlk dəfə faşistlərlə Moskva uğrunda gedən döyüşlərdə qarşı-qarşıya gəlmişdir. Moskva yaxınlığındakı döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə M.Allahverdiyev "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir. Sonra Xarkov uğrunda döyüşlərin iştirakçısı olmuş, Dnepropetrovsk, Zaporojye, Nikolayev, Krivoy Roq, Kirovqrad, Kişinyov şəhərlərinin azad edilməsində qətiy-yətlə döyüşmüşdür. Beləliklə, çox keçməmişdir ki, qvardiya kapitanı hərbi rütbəsinə layiq görülmüşdür.

M.Allahverdiyev Macarıstan torpağında böyük bir düşmən qrupunun ləğv edilməsində isə xüsusilə fərqlənmişdir.

13 noyabr 1944-cü ildə onun komandanlıq etdiyi batalyon düşmənin müdafiə xəttini yararaq alayın döyüş tapşırığının yerinə yetirilməsini təmin etmişdi. 1944-cü ilin 1 dekabr gecəsi Allahverdiyevin batalyonu düşmənin top atəşi altında Dunay çayını keçərək sağ sahildə gedən qızğın döyüşlərə qatılmışdır. Çox məsuliyyətli və ağır döyüşdə batalyon komandiri şəxsən özü döyüşçülərin sahilə enməsini pulemyot atəşi ilə himayə edirdi. Düşmən geri çəkilməyə başladı. Bu döyüşdə



Allahverdiyevin batalyonu 500 faşist əsgərini məhv etmiş və 2200 düşmən əsgər və zabitini əsir almış, 24 silah, 36 pulemyot, 8 minaatan, 3 avtomaşın, 10 araba, 2 silah və ərzaq anbarlarını ələ keçirmişdir.

Macarıstanın paytaxtı Budapeşt uğrunda gedən döyüşlərdə də M.Allahverdiyevin döyüşçüləri fərqlənmişlər. Onun batalyonuna Budapeştdə mühasirədə olan alman qoşunlarının xilas edilməsi üçün tələsən 120 düşmən tankından ibarət dəstənin qarşısını almaq əmri verilmişdi. Mayorun təşkil etdiyi döyüş pusqusu nəticəsində 25 düşmən tankı, 700 əsgər və zabit məhv edilmiş, beləliklə də, düşmənin şəhərə girməsinin qarşısı qətiyyətlə alınmışdır.

Ordu komandanlığının həmin xüsusi tapşırığını yerinə yetirərkən alman-faşist işğalçıları ilə döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şəxsi şücaətə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə Müseyib Allahverdiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, "Lenin" ordeni və "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir.

1946-cı ildə ordudan tərxis olunan M.Allahverdiyev uzun illər Qazax, Ağstafa, Tovuz rayonlarında rəhbər vəzifələrdə, sovet və təsərrüfat işlərində çalışmışdır. Ağstafa rayon xalq deputatları soveti sədrinin müavini, rayonlararası meşə təsərrüfatı idarəsinin direktoru olmuşdur. O, dinc illərdə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalına və fəxri diplomuna layiq görülmüşdür. Harada işləməsindən asılı olmayaraq Müseyib müəllim el-obasında böyük hörmət və söz sahibi olmuşdur. İnsanlara böyük qayğı ilə yanaşmış, imkanı daxilində onların problemlərini həll etməyə çalışmışdır.

Bu günün özündə də Müseyib müəllim Qazax mahalında böyük hörmətlə anılır və yad edilir. 19 may 1969-cu ildə dünyasını dəyişmiş qəhrəmanımız doğulduğu Dağkəsəmən kəndində dəfn edilmişdir.

Müseyib Allahverdiyevin el-oba qayğısını çəkmək, insanlara qarşı diqqətli olmaq kimi şərəfli işini bu gün onun övladları ləyaqətlə davam etdirirlər. Vətən üçün 3 qız, 3 oğlan, 17 nəvə, 35 nəticə yadigar qoyan Müseyib müəllimin övladları da xalqımıza, dövlətçiliyimizə sədaqətlə xidmət edirlər.

Azərbaycan xalqı öz qəhrəman oğlunun xatirəsini həmişə əziz tutur. Ağstafa rayonunun Dağkəsəmən kəndindəki orta məktəb onun adını daşıyır. Ağstafa və Qazax rayonlarında onun adına küçələr salınmış, görkəmli yerlərdə büstü qoyulmuşdur. Onun ən böyük qiyməti isə əziz xatirəsinin minlərlə sadə adamların qəlbində yaşamasıdır. Əbəs yerə demirlər ki, xalqı üçün, torpağı üçün döyüşənlər heç vaxt unudulmurlar.

# Cəbrayıldan Varşavaya - Böyük Vətən müharibəsinin Azərbaycanlı qəhrəmanı

1941-ci ilin iyun ayında könüllü olaraq hərbi xidmətə getmək istəyəndə, komissarlıq yaşına görə onu geri qaytarıb. Nəhayət, 6 ay keçdikdən sonra, 18 yaşı tamam olanda Cəmil Əhmədov Cəbrayıl rayonundan hərbi xidmətə, birbaşa cəbhəyə yollanıb. Savadlı, çevik, intizamlı olduğundan onu əvvəlcə Orconikidze hərbi məktəbinə göndəriblər. Cəmil Əhmədov həmin məkəbi bitirdikdən sonra leytenant rütbəsində, taqım komandiri vəzifəsində Şimali Qafqaz cəbhəsində xidmətə başlayıb.

Cəmil Əhmədov 1924-cü ildə Cəbrayılda anadan olub. Orta məktəbi əla qiymətlərlə bitirib. Savadlı, tərbiyəsi, hələ yeniyetməlik yaşlarından vətənpərvər olması ilə fərqlənib.

Böyük Vətən müharibəsi başlananda o da bir çox həmyaşıdları kimi könüllü olaraq cəbhəyə getmək, döyüşçülər sırasında dayanmaq arzusunda olub. Hərbi təhsil alarkən hərb elminin sirrlərinə dərindən yiyələnən Cəmil Əhmədov cəbhədə olduğu ilk günlərdən komandanlığın diqqətini çəkib. Qısa müddət keçdikdən sonra ona hətta məxfi sayılan hərbi əməliyyatlar da etibar olunub.

Şimali Qafqaz, Ukrayna, Belarusiya cəbhələrində uğurlu döyüşlərə görə qvardiya leytenantı Cəmil Əhmədov "Aleksandr Nevski", "Qırmızı Ulduz" ordenləri ilə təltif olunub.

1943-cü ildə iki dəfə yaralanmasına baxmayaraq, gənc leytenant səhra şəraitində tibbi yardım alaraq komandiri olduğu taqımın önündən geri çəkilməyib.

Cəmil Əhmədovun Belarusiyanın Qomel vilayətində göstərdiyi şücaət çoxmillətli sovet ordusunda bu azərbaycanlı oğlunun nə qədər qorxmaz olduğunu bir daha sübut edib. Ağır döyüşlərdə



almanlarla təkbətək üz-üzə qalan Cəmil Əhmədov ölümün gözünə dik baxaraq canlı sədd qurmuş onlarla alman əsgərini məhv edərək döyüş yoldaşlarını mühasirəyə düşmək təhlükəsindən qurtarıb.

Həmin döyüşdən sonra Cəmil Əhmədov Malın kəndinin ətrafından keçən Tremiya çayında, suyun içində mövqe tutaraq düşmənə bu kəndi ələ keçirməyə imkan verməyib. Əlavə qüvvələr gələnə qədər taqım kiçik bir qüvvə ilə bu böyük kəndi almanlara təhvil verməyib.

Bu döyüşdə ağır yaralanan Cəmil Əhmədov səhra hospitalına aparılıb. Müalicəsini sona qədər almayan leytenant yenidən cəbhələrə atılıb.

Bu dəfə isə istiqamət Polşaya doğru olub. Birbirinin ardınca uğurlu hərbi əməliyyatlara imza atan Cəmil Əhmədov 1944-cü il iyun ayının 10-da Polşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Döyüş yoldaşlarının yaddaşına peşəkar hərbçi olmaqla yanaşı, həm də qayğıkeş komandir, əsl dost kimi həkk olunan Cəmil Əhmədov Varşavada - sovet döyüşçüləri üçün ayrılmış Qəhrəmanlar Xiyabanında dəfn edilib.

SSRİ Ali Soveti Rəyasət heyətinin 24 mart 1945-ci il tarixli fərmanı ilə Cəmil Əhmədov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülüb.

Xatırladaq ki, Cəmil Əhmədov yazıçı Sabir Əhmədovun qardaşıdır.

1985-ci ilin may ayında Qələbənin 50-illik yubileyi münasibəti ilə Cəbrayıl rayonunda Cəmil Əhmədovun ev muzeyi açılıb. 1988-ci ildə qəhrəmanın xatirə kompleksinin yaradılmasına qərar verilib, heykəli isə Ömər Eldarov tərəfindən hazırlanmıb. Muzey öz fəaliyyətinə 500-ə yaxın eksponatla başlayıb, sonradan bu eksponatların sayı 800-ə çatdırılıb. İgid azərbaycanlı oğlunun xatirə muzeyi Cəbrayıl rayonunun diyarşünaslıq muzeyinin filialı kimi fəaliyyət göstərib və ermənin təcavüzü nəticəsində, 1993-cü ildə öz fəaliyyətini dayandırıb.

# Американский сайт: "Азербайджанский разведчик, спасший еврейских детей, заслужил звание Праведника народов мира"



В 1941 году "секретная группа" Кремля решила не убивать одного из главных сподвижников Гитлера - Карла фон Роденбурга, а захватить его живым. Это задание было поручено группе "Деда Гамзы"- Гамзе Джумшуд оглы Садыгову, который был азербайджанцем, офицером советской разведки под кодовым названием "Садыгашвили".

Об этом написала американская журналистка Нурит Грингер на популярном американском информационно-аналитическом сайте newsblaze.com.

Автор статьи отмечает, что Карл Роденбург был генералом Вермахта нацистской Германии, который во время Сталинградской битвы командовал 76-й пехотной дивизией.

"Согласно документам, которые советское КГБ держало в секрете в течение 70 лет, одной из главных задач Главного управления № 44388, которое позже называлось 4-м Директоратом ГРУ СССР, был сбор материалов о генералах Гитлера, восемь из которых были потомственными военнослужащими, которые участвовали в Первой мировой войне и были ближайшими соратниками Гитлера. Среди них был генерал фон Роденбург, известный как особенно жестокий, но названный "тихим генералом", потому что он не мог вынести звук выстрелов. В одном из своих приказов он написал: "...надо быть жестоким и беспощадным по отношению к евреям".

С 1940 года специальное нацистское подразделение под названием "Одесса" в подразделении фон Роденбурга занималось разработкой биологического оружия. Эта группа имела особое значение, поскольку в список ее членов входил Отто Скорцени, командир любимого отряда Гитлера, диверсант СС, штандартенфюрер и "доктор" Йозеф Менгеле, который проводил криминальные эксперименты с заключенными концлагеря Освенцим-Биркенау.

Предположительно фон Роденбург, который считал себя непобедимым солдатом фюрера, часто упоминал, что ему удалось застрелить человека, который взял его в плен, и этот человек был не русским, а какой-то другой национальности"- отмечает американская журналистка.

По мнению Грингер, накануне капитуляции немецких войск в Сталинграде Гитлер приказал Роденбургу отравить и уничтожить все колодцы и водохранилища.

"Советская разведка могла бы легко устранить фон Роденбурга, тем не менее, будучи нанятым Абвером и в связи с тем, что с 1939 года фон Роденбург был носителем особенно важной информации, которую получили Советы, советская разведка решила захватить живьем этого одиозного генерала Гитлера, которого считали отцом "биологического оружия" Гитлера, что представляло серьезную опасность.

По данным Нюрнбергского судебного разбирательства, захват Роденбурга спас жизни многих тысяч советских людей. Предположительно, фон Роденбург находился в 35 минутах от попытки использовать отравляющие вещества в Сталинграде. Согласно показаниям свидетелей операции, немецкий генерал фон Роденбург боялся всего, даже собственных немецких солдат и офицеров.

Во время штурма штаба Роденбурга, во время которого группа Садыгашвили потеряла много бойцов, Гамза Садыхов лично сам приставил автомат к виску немецкого генерала и заставил его встать на колени. Однако немцу удалось сделать резкий рывок и несколько раз выстрелить из пистолета и ранить Садыхова. В материалах Нюрнбергского процесса также указывалось, что фон Роденбург экспериментировал своим смертоносные "изобретения" в области биологического оружия на еврейских беременных женщинах, еврейских детях и заключенных" -пишет Нурит Грингер.

Согласно данным СМЕРШа, по приказу немецкого генерала Роденбурга была создана специальная комната, где многие еврейские дети содержались под усиленной охраной, и часто он лично исполнял свои жестокие приказы.

"Немцы унижали, оскорбляли и расстреливали этих детей. Перед советскими разведчиками стояла задача: взорвать всю штаб-квартиру Роденбурга вместе с подвалом, где содержались эти еврейские дети. Руководитель разведывательной группы Садыгашвили (Гамза Джумшуд Садыгов) освободил более сотни еврейских детей из подвала, затем он поднялся на второй этаж, и находясь под воздействием увиденного в подвале, с особым профессионализмом напал на генерала фон Роденбурга и лично взял немецкого генерала в плен"- отмечается в статье.

Грингер отмечает в статье, что Авраам Коган - член 52-й специальной мотострелковой бригады бывшего НКВД, писал о полковнике 51-й мотострелковой дивизии Гамзе Садыгове: "Исаак Аарон Михайлович, родившийся в Баку, познакомил меня с настоящим азербайджанским героем, который сыграл очень важную роль в освобождении и спасении более 30 еврейских семей и сотни еврейских детей, которые содержались во "Дворце смерти" Роденбурга. Список спасенных детей был отправлен в Москву. Мои друзья-евреи и я называли Садыгова "земляком". Мы отправили письмо о его героизме в синагогу. Письмо было подписано одиннадцатью офицерами. Мы попросили главу синагоги Соломона помолиться за Садыгова, когда он молится за нас".

22 октября 1949 года израильская ежедневная газета "Маарив" опубликовала статью под заголовком "Долг", написанную военным журналистом И. Фельдманом, который подробно рассказал о действиях Гамзы Садыгова. "Война - это сцена, где становится ясно, кто есть кто. Она никого не прощает и не делает одолжений никому. Азербайджанец Гамза Садыгов спас наших детей от неминуемой смерти в боях за Сталинград в 1942 году, ставших одной из главных страниц новой истории Израиля. Мы просим наших еврейских историков написать об этом азербайджанце Садыгове, доблестном воине, который спас наших детей от фашистского плена, чтобы они осветили его героизм, его бескорыстную помощь нашим семьям и детям. Мы не должны забывать историю этого героя" - писал Фельдман в газете "Маарив".

Американская журналистка отмечает, что на протяжении многих лет имя азербайджанского героя Гамзы Садыгова не было упомянуто в учебниках истории и мемуарной литературе, и никто не знал о нем.

"После падения "железного занавеса" когда было открыто много архивов, и полузабытые или закрытые имена стали общедоступными, публика познакомилась с именем Гамзы Садыгова, более известного под кодовым названием "Садыгашвили". В свое время он был номинирован на "Золотую звезду" Героя Советского Союза за мужество и героизм.

Посмертно доблестный, храбрый и мужественный Гамза Садыхов вернулась в свой родной Агдамский район, Азербайджан. Он настоящий герой, и его могила сегодня находится на территориях Азербайджана, незаконно оккупированных Арменией. Довольно болезненно и неприятно, когда слышишь о том, что тело героя, спасшего десятки еврейских семей от жестоких фашистов, лежит в могиле, предположительно уничтоженной армянскими вандалами, и теперь находится под ногами армянских фашистов, которые подобно нацистам убивали и уничтожали азербайджанских детей в азербайджанском городе Ходжалы и на других оккупированных территориях Азербайджана" - подчеркивает Нурит Грингер.

"Во время последнего визита в Азербайджан мой друг организовал мне встречу с Фирдовси Садыховым, чтобы воочию услышать эту удивительную человеческую историю. Это история о его отце, которого он очень мало знал в детстве и много узнал о нем, когда повзрослел. Когда вы входите в дом Фирдовси Садыхова, такое впечатление, что вы входите в настоящий музей. Две огромные фотографии его отца, героя Гамзы Садыхова в военном мундире, с другой стороны фотографии руководства Азербайджана, а также фотографии израильских лидеров Давида Бен-Гуриона и Биньямина Нетаньяху, а также бок о бок флаги Азербайджана и Израиля.

Когда все это видишь, то сначала удивляешься, затем, сидя за столом и беседуя с сыном этого героя, как-то успокаиваешься. Затем все это начинает обретать смысл, и это великолепная история становится душевной и глубоко затрагивает человеческие чувства. Благодаря моему другу, в столице Азербайджана я нашла настоящее человеческое сокровище - Фирдовси Садыхова. В течение многих часов, дегустируя традиционные азербайджанские блюда и напитки, мы сидели и разговаривали, главным образом, о его отце - герое Гамзе Садыхове и о его теплой любви и уважении к еврейскому народу и Государству Израиль ", - пишет американская журналистка в своей статье.

Нурит Грингер отмечает, что бабушка и дедушка Фирдовси покинули ныне оккупированную Шушу и поселились в Агдаме в 1905 году, потому что в Шуше произошли волнения между армянами и азербайджанцами.

"Отец Фирдовси, Гамза Садыгов, родился в Агдаме в 1915 году и жил там до 1964 года. Когда в 1945 году Гамза Садыхов вернулся домой, он встретился с партийным лидером Азербайджанской ССР Мир Джафаром Багировым. Гамза гордился тем, что обезвредил, арестовал фон Роденбурга, также Гамза был гордостью жителей Агдама. Гамза Садыгов скончался 9 мая 1964 года в молодом возрасте - 49 лет. В 1992 году во время конфликта с Арменией и оккупации Агдама семья переехала из Агдама в Баку, оставив могилу Гамзы в оккупированном и уничтоженном армянами Агдаме" - отмечает Грингер.

Американская журналистка подчеркивает, что Фирдовси Садыхов чрезвычайно гордится тем, что его отец, которого он потерял в подростковом возрасте - в возрасте 15 лет, - азербайджанец, спасший от неминуемой смерти и жестокости десятки еврейских семей и сотни еврейских детей.

"Дети есть дети. То, что фашисты так равнодушно убивали детей, вызывает во мне страшную боль, - выражает Садыхов свои чувства, - Во время операции по захвату Роденбурга мой отец был тяжело ранен, и он это сделал ни на минуту не задумываясь о себе и опасности быть убитым, он прежде всего думал о том, чтобы спасти детей", - сказал Фирдовси Садыхов.

"Я начал все это узнавать о своем отце около 20 лет назад. В 1976 году я узнал, что мой отец был офицером разведки в Советской армии. Любопытство привело меня к поиску материала об отце. В 1976 году я отправился в соседнюю страну - Грузию, чтобы принять участие в Дне Победы Советского Союза над нацистской Германией, и там я встретился с товарищами, которые служили вместе с моим отцом в Советской армии".

Нужно отметить, пишет Нурит Грингер, Фирдовси, как и многие азербайджанцы, очень сильно любит еврейский народ и с большой симпатией относится к Государству Израиль.

"В качестве подтверждения, мы увидели, как стены его гостиной украшены фотографиями Давида Бен Гуриона, первого премьер-министра Израиля и Биньямина Нетаньяху, нынешнего премьер-министра Израиля. А флаги обеих стран, Азербайджана и Израиля, расположены рядом друг с другом как часть экспозиции. Фирдовси мечтает, чтобы Государство Израиль почтила память героя - Гамзы Садыхова. Перед смертью его отец-герой сказал ему: "Евреи найдут тебя". Я, еврейка, нашла его. Я уверена, что и другие евреи также найдут Фирдовси.

В Израиле людей, которые помогли спасти евреев в период Холокоста, наделяют статусом "Праведника народов мира". Гамза Садыгов заслуживает этого признания? Я уверенно говорю да. Каждый человек - это прежде всего человек, прежде чем он или она станет членом этнической или религиозной группы. Вот почему я - писатель, журналист уважаю и с большим уважением отношусь к народу Азербайджана и сделаю все возможное, чтобы помочь этому народу во всем, так же, как герой Гамза Садыхов спасал сотни еврейских детей во время Холокоста" - резюмирует Нурит Грингер в своей статье, вышедшей на популярном американском информационно-аналитическом сайте.

# İkinci Dünya müharibəsi: Qərbin Bakını bombalamaq planı

Azərbaycan paytaxtı İkinci Dünya Müharibəsinin döyüş meydanlarından olmayıb. Lakin bununla belə, Bakı istər müttəfiqlərin, istərsə də “ox ölkələri”nin baş qərargahlarındakı müzakirələrdə və məxfi sənədlərdə adı Stalinqrad, Berlin, London və Paris qədər tez-tez çəkilən şəhər olub.

Yəqin ki, SSRİ şəklində hazırlanmış ad günü tortunun “Bakı” hissəsinin kəsilib Hitlerə verildiyi kinokadrları xatırlayırsınız.

Qərbin Bakını bombalamaq planı necə, olubmu? Britaniya və Fransanın hərbi qərargahlarının həmin dövrə aid sənədləri göstərir ki, belə bir plan olub. Britaniya və Fransanın hərbi strateqləri müharibənin ilk iki ili ərzində Azərbaycan paytaxtını bombardman etməyi uzun müddət çox ciddi müzakirə ediblər.

Niyə bomba, niyə Bakı?

Bu suala cavab vermək üçün İkinci Dünya Müharibəsinin ilk iki ili ərzində cəbhə xətlərində yaranmış vəziyyətə baxmaq lazım gəlir.

Məsələ burasındadır ki, 1939-cu ildə Almaniya və SSRİ arasında “hücum etməməyə” dair imzalanmış və “Molotov-Ribbentrop” paktı kimi tanınan razılaşma əldə edildikdən sonra, Moskva “neytrallığına” baxmayaraq müttəfiqlərə qarşı çıxmış kimi görünürdü.

Londonda və Parisdə əmin idilər ki, bu müqavilə Hitleri və Stalini müttəfiq edir. Bu müttəfiqlik SSRİ-nin Almaniyanı yanacaqla təmin etməsi perspektivi kimi təhlükə yaradırdı.

Beləliklə, Britaniya və Fransa komandanlıqları Bakını, Batumini və Qroznını qəfil bombardman etməklə SSRİ-nin neft sənayesini sıradan çıxarmaq, Hitleri neftsiz qoymaq qərarına gəlmişdilər.

Britaniya Hərbi Hava Qüvvələrinin komandanı John Slessorun hazırladığı bombardman planı “Pike əməliyyatı” (Operation “Pike”) adlanırdı.

“Pike” nizə deyil...

İlk dəfə bu əməliyyat barədə oxuyanda düşünürdüm ki, “pike” ingiliscə “nizə” mənasında işlədilib.

Britaniya Hərbi Hava Qüvvələrinin komandanı John Slessor (soldan 3-cü) "Pike əməliyyatı" planını hazırlamışdı.

Lakin sonrakı axtarışlarım bunun belə olmadığını göstərdi və başa düşdüm ki, Pike (payk) sözünü böyük hərflə yazmaqda davam etməliyəm.

Tarixçi Patrick R. Osborn özünün "Pike Əməliyyatı: Britaniya Sovet İttifaqına qarşı, 1939-1941" ("Operation Pike: Britain Versus the Soviet Union, 1939-1941") kitabında yazır ki, İkinci Dünya Müharibəsindən 20 il əvvəl, 1918-ci ilin yayında general Dunstervillein komandanlığı altında Bakıya təxminən min nəfərlik əsgəri qüvvə yeridilmişdi. Lakin onlar Bakıda çox qala bilmədilər.

Sentyabrın 15-də şəhər Osmanlı ordusu tərəfindən tutuldu. Elə həmin vaxt Britaniya qüvvələri Bakını tələm-tələsik tərk edirdilər və bu zaman hücum edən türklərlə atışmaq lazım gəlirdi. Bu atışmada ingilislər itki verirdilər. Ölənlərin arasında bir polkovnik də var idi. Dunsterville onu Bakının işğalı günlərində öz nümayəndəsi kimi Tbilisiyə də göndərmişdi. Polkovnikin soyadı Pike idi.

Əslində iki dünya müharibəsi arasında zaman o qədər qısa olmuşdu ki, 1918-ci ildə Bakını zəbt edən və bu əməliyyata rəhbərlik edənlərdən bəziləri 1940-cı ildə hələ də Britaniyanın Hərbiyyə Nazirliyində çalışırdılar və onlardan polkovniki xatırlayanlar da vardı.

Bakıya ikinci yürüş məhz buna görə “Pike” adlandırılmışdı.

Amma əməliyyatın mürəkkəbliyi barədə oxuyanda görürsən ki, onu elə “nizə” kimi də başa düşmək olar. O zamanın hərbi bombardmançı təyyarələrinin çoxu belə uzun uçuşları texniki baxımdan icra edə bilmirdilər.

Əməliyyatı zəruri edən şərait...

“Pike” əməliyyatına ilkin hazırlıq



SSRİ 1939-cu ilin sentyabrında Polşanın bir hissəsini işğal etdikdən və Stalin həmin ilin dekabrında Finlandiyaya qarşı müharibəyə başladıqdan sonra start verilmişdi.

Britaniya və Fransa bu planın tərkib hissəsi kimi Norveç və İsveçi işğal etməyi planlaşdırırdılar. Lakin bu işğal texniki baxımdan son dərəcə çətin olacaqdı və müttəfiqlər böyük itki verə bilərdilər.

Ümumilikdə isə, Paris və London SSRİ ilə Finlandiya arasında müharibənin davam etməsinə tərəfdar idilər. Bu, Britaniya və Fransaya Sovet İttifaqına hücum üçün əsas verirdi. Çünki bu şəraitdə Moskva de fakto Berlinin müttəfiqi olmuşdu.

London və Parisi narahat edən isə bu idi ki, nasist Almaniyası Sovet neftinə çıxış əldə edə bilər.

Çörçill əməliyyata qarşı idi...

Londonda Winston Çörçill də daxil olmaqla bəzi siyasətçilər SSRİ-nin bombardmanı planını qəbul etmirdilər.

Buna baxmayaraq, Fransa hökuməti tərəfindən general Maurice Gamelin-ə “Sovet İttifaqının neft sənayesini ləğv etmək məqsədilə hərbi əməliyyata hazırlaşmaq” tapşırıldı.

Fransanın sovetlərin neft sənayesini hədəfləməklə əldə edəcəyini düşündüyü məqsədlər geniş idi.

1940-cı il fevralın 22-də general Gamelin Fransanın baş nazirinə raportunda yazırdı ki, “Bakının bombardmanı nəticəsində yaranacaq neft qıtlığı Qırmızı Ordunu və sovetlərin hərbi hava qüvvələrini iflic edəcək, aclığa səbəb olacaq və hətta Sovet İttifaqının çökməsinə gətirib çıxaracaq”.

Çörçill əməliyyata qarşı idi....

Britaniya hökuməti Bakı, Batumi və Qrozni neft şəhərlərinin bombardmanı əməliyyatına hazırlığa Stalinin Finlandiyada apardığı müharibə başa çatandan sonra başlamışdı.

“Pike” əməliyyatına əsasən bombardmançı təyyarələr İran, Türkiyə və Suriya ərazisindəki hərbi bazalardan qalxmalıydılar.

Əvvəlcə Bakının şəklini çəkmək

Britaniya təyyarələri Batumi və Bakı üzərində kəşfiyyat uçuşlarını 1940-cı ilin mart ayında həyata keçirdilər.

Bu təyyarələrdə yüksəklikdən çəkə bilən stereoskopik fotokameralar qurulmuşdu.

Bu məqsədlə mavi rənglə boyanmış Lockheed Model 14 Super Electra tipli təyyarə 1940-cı il martın 30-da İraqdakı Həbbaniyyə hərbi hava bazasından qalxaraq Bakı istiqamətində uçdu.

SSRİ-nin hava məkanına saat 11.45-də daxil olan təyyarə İraq Kürdüstanın üzərindən uçaraq Xəzər dənizinə çatdı və buradan Bakıya yaxınlaşdı. Bakı üzərində 1 saatadək dövrə vurub şəkil çəkən təyyarə 12.45-də Həbbaniyyəyə qayıtdı. Bakını müdafiə edən sovet hava hücumundan müdafiə qüvvələrinin, necə deyərlər, ruhu da inciməmişdi.

Lakin Batumi uzərində 1940-cı ilin 5 aprelində kəşfiyyat uçuşunu yerinə yetirən təyyarə sovetlərin radarına düşdü, hətta atəşə tutuldu, lakin sağ-salamat bazasına qayıtdı.

Əldə edilən fotolar əməliyyata başlamaq imkanı verirdi. Bakı, Batumi və Qrozni şəhərləri bombalanmalıydı. Bu hədəflərdən ən mürəkkəbi dağlıq ərazidə yerləşən Qroznı olduğundan ilk gözlənilməz zərbələr ora endirilməliydi. Əməliyyat zamanı yandırıcı mərmilərdən istifadə olunmalıydı.

Bakının üstünə gələn armada...

Əməliyyata başlamaq məqsədilə 1940-cı il aprelin 1-də 48 Bristol Blenheim Mk IV bombardmançı təyyarələrindən ibarət eskadriliya Yaxın Şərqdəki bazalara köçürüldü. Gecə missiyaları üçün bir neçə ədəd Wellesley təyyarələri də hazırlanmışdı.

Əməliyyatda ABŞ istehsallı 65 Glenn Martin təyyarələri də iştirak edəcəkdi.

Fransızlar uzaq bombardman üçün təyyarələrə malik deyildilər. Onların təyyarələri yalnız Suriyadan qalxaraq Batumini vura bilərdilər. Məhz buna görə də onlar Suriyada xüsusi uçuş-eniş zolaqları tikirdilər. Tikinti 1940-cı il mayın 15-də başa çatmalı idi.

Fransızların hesablamalarına görə bütövlükdə 120 neftayırma kompleksini dağıtmaq üçün 360 qrup uçuşu icra edilməliydi.

Hədəflərə qədər olan məsafənin qət edilməsi üçün bir çox təyyarələrə əlavə yanacaq bakları bərkidilmişdi.

Hava hücumu nəticəsində Bakı 15, Qroznı 12, Batumi isə 1 gün ərzində yerlə yeksan edilməliydi.

6 ay əvvəl Berlində...

1939-cu il ərzində Almaniya və SSRİ diplomatları bir sıra danışıqlarda görüşmüşdülər. Yenidən Patrick R. Osbornun “Pike Əməliyyatı” kitabına müraciət edək:

“Noyabrın 13-də SSRİ xarici işlər naziri Molotovu qəbul edən Hitler Sovet İttifaqına Britaniya əleyhinə müttəfiqlik təklif edirdi.

Lakin uzun-uzadı monoloqu zamanı fürer bu müttəfiqliyin təfərrüatlarını açmaqdan boyun qaçırırdı. Molotov isə məhz təfərrüatlar məsələsində israr edirdi”.

Ola bilsin ki, sovet xarici işlər naziri almanların baş qatdığını, SSRİ-ni yuxuya verdiyini və vaxt qazanmağa çalışdıqlarını duymuşdu. Moskva və Berlin bir-birlərinə inamırdılar.

Görüş elə bu ümidsiz notda da başa çatdı.

Osborne daha sonra yazır ki, həmin günün axşamı Molotov Berlində hələ çar Rusiyasının səfirliyi olmuş binada Almaniya vəzifəliləri üçün ziyafət vermişdi.

Hitler bu məclisə gəlməmişdi. Əvəzində xarici işlər naziri Ribbentrop fürsətdən istifadə edib Molotovun qulağını müttəfiqlik nağılları ilə doldururdu. Elə bu vaxt ağır bombardmançı təyyarələrin uğultusu, ardınca sirena səsləri eşidildi. Berlin üzərində Britaniya təyyarələri uçuşurdu.

Ribbentrop qonağını təcili olaraq şəxsi bunkerinə dəvət etdi. O müttəfiqlik mövzusunu burada da davam etdirirdi. Molotov isə “təfərrüatlar” deyib durmuşdu.

Bu anda Ribbentrop Molotova dedi ki, Almaniya gələcəkdə Brirtaniyanın əlindən alınacaq isti dəniz sahillərini Moskvaya peşkəş edə bilər.

Molotov nəzərlərini bunkerin tavanına qaldırdı. Oradan hələ də təyyarə uğultuları gəlirdi.

“Siz ingilislərlə həyat uğrunda vuruşsanız, onlar sizinlə ölüm-dirim uğrunda vuruşacaqlar” – dedi Molotov.

Yəni “siz əvvəlcə həmin isti sahilləri ingilislərdən alın, bundan sonra biz hədiyyəni qəbul edib-etməmək barədə düşünərik”.

İflas...

Aylardan bəri hazırlanan strateji “Pike” əməliyyatı həftələr və hətta günlər ərzində iflasa uğradı. 1940-cı il mayın 10-da Fransa Almaniya tərəfindən işğal edildi.

Alman əsgərləri La Şarite-sur-Luar kəndində dəmir yolu üzərində dayanmış vaqonlarda çox sayda məxfi sənəd aşkar etdilər.

Bu sənədlərin arasında “Pike” əməliyyatına aid olanlar da vardı.

Almanlar bu hadisədən təbliğat və sovetləri bir az da yuxuya vermək üçün istifadə etdilər.

Almaniyanın rəsmi dövlət xəbər agentliyi bildirirdi ki, Berlin Fransanı işğal etməklə, SSRİ də daxil olmaqla başqa dövlətləri xaosdan xilas edib. Xəbər verilirdi ki, guya Almaniya Fransaya məhz bu məqsədlə hücum edib.

Bu zaman Londonun da başı qarışıq idi. Almaniya təyyarələri onun özünü bombardman edirdilər.

Əgər Bakı bombalansaydı...

Bəs Bakı və bombardmanı gözlənilən digər neft şəhərləri aviasiya hücumuna nə dərəcədə hazır idilər?

Azərbaycan Polis Akademiyası ictimai elmlər kafedrasının dosenti, Azərbaycanın əməkdar müəllimi Tahir Behbudov bu mövzuya nə vaxtsa ciddi diqqət yetirmiş azsaylı Azərbaycan tarixçilərindəndir.O özünün "Bakının bombalanması – Fransa və İngiltərənin SSRİ-ə qarşı hərbi planları" məqaləsində yazır ki, Azərbaycan paytaxtı və onun neft mədənləri hava hücumundan çox zəif qorunurdu.

Marşal Qeorgi Jukov "Xatirələr və düşüncələr" adlı kitabında qeyd edir ki, sovet silahlı qüvvələri ölkənin cənubundakı neft rayonlarını qorumaq iqtidarında deyildilər və 1939-1941-ci illərdə sovet hərbi təyyarələrinin 70 faizi texniki göstəricilərinə görə adi alman təyyarələrindən geri qalırdı.

Serqo Beriya da "Mənim atam Lavrenti Beriyadır" xatirə kitabında atasına istinadən neft rayonlarının aviasiya hücumları qarşısında aciz olduğunu etiraf edir.

Lakin istər Jukov, istərsə də Beriya məhz Almaniya təyyarələrindən söz açırdılar. SSRİ-yə məhz onların hücum edəcəyi gözlənilirdi.



Elə buna görə də Britaniya-Fransanın hava zərbələri Moskva üçün hətta bundan da gözlənilməz olmalıydı. Tahir Behbudov yazır ki, Bakı bombalansaydı, neft quyularının alışması və zəncirvari artan partlayış və yanğınlar baş verəcəkdi.

Hər tərəfdən neft mədənləri ilə dövrələnmiş Bakı, lap Hitlerin ad günü tortundakı "Bakı" kremin içərisində olduğu kimi neftin içindəydi.

1940-cı ilin 14 martında Fransa kəşfiyyatının əldə etdiyi məlumatda deyilirdi ki, Moskva Birləşmiş Ştatlara neft mədən yanğınlarını söndürən mütəxəssislər göndərməsi və "Bakı mədənlərinin bombardman ediləcəyi təqdirdə effektiv yanğınsöndürmə üçün təlimatlar verməsi" xahişi ilə müraciət edib.

Lakin amerika mütəxəssislərinin fikrincə, Bakı regionunda torpağa o qədər neft hopmuşdu ki, baş verəcək yanğınları aylarla söndürmək lazım gələcəkdi. Neft sənayesinin bərpasına isə illər gedəcəkdi.

Neft mədənlərində baş verən yanğınlar küləklər vasitəsilə şəhərə keçə bilərdi. Belə bir yanğının Bakı əhalisi üçün hansı nəticələrə gətirib çıxara biləcəyini təsəvvür etmək belə dəhşətli görünür.

Nə rahatdır xəritə üzərində...

Osborne yazır ki, "Pike" əməliyyatı bir daha 1941-ci ildə, Almaniyanın Sovet İttifaqına hücumundan sonra yada düşdü.

Bu dəfə Bakı almanların əlinə keçərsə, bombalanmalıydı.

Lakin belə görünür ki, Almaniya Bakı mədənlərini bombalamaq niyyətində deyildi. Əksinə, Berlin narahat idi ki, neft mədənlərini, məğlub olduqları təqdirdə sovetlərin özləri yandıra bilərlər. Adolf Hitlerin əmrlərində qoşunlara Bakının işğalı zamanı yanğına yol verməmək tapşırılmışdı.

Bir sözlə, Bakını yandırmaq istəyən az deyildi. Lakin müharibənin gedişi döyüşlər Bakıya çatmadan dəyişdi.

Britaniya millət vəkili, şair-satirik və özü də dəniz donanmasında xidmət etmiş lord Alan Patrick Herbert əsl müharibənin nə olduğunu şəxsi təcrübəsindən bilirdi və həmin dövrdə Bakının bombalanması planını "Bakı və ya xəritə oyunu" adlı şeiri ilə lağa qoymuşdu:

*"Nə rahatdır xəritə üzərində*
*Bircə gündə əzişdirmək düşməni*
*Neytrallar əl-ayağa dolaşır,*
*Yoxsa nə var o təcavüz edəni*
*Bircə gündə öz yerində oturtmaq!*
*Bircə gündə dayandırmaq hücumu,*
*Gəl bir-iki bomba ataq Bakıya,*
*Ya da gəlin bombalayaq*
*Batumu..."*

Beləliklə, Bakının bombardmanı planı şair Herbert demişkən elə xəritə üzərində qaldı...

Zülfüqar Rüfətoğlu

## Qarabağ müharibəsi əlillərinə 50 minik avtomobili təqdim edilib

İyulun 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Xəzər" markalı 50 minik avtomobili Qarabağ müharibəsi əlillərinə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, avtomobillərin təqdim olunması tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli Prezident İlham



Əliyevin sosial islahatlar proqramının uğurlarını diqqətə çatdıraraq bildirib ki, bu ildə dövlət başçısının təqdim etdiyi iki sosial islahat paketi minimum əməkhaqqının iki dəfəyə yaxın, minimum pensiyanın 72,4 faiz, sosial müavinət və Prezidentin aylıq təqaüdlərinin orta hesabla 100 faiz, məcburi köçkünlərə verilən müavinətin 50 faiz, eləcə də tələbələrin təqaüdlərinin ciddi şəkildə artırılmasına, problemli kreditlərlə bağlı narahatlığın aradan qaldırılmasına imkan verib. Aparılan həmin tədbirlər nəticəsində ümumilikdə 4,2 milyon vətəndaşın, nəticə etibarilə hər bir ailənin rifahına ciddi dəstəkdir.

Nazir müavini şəhid ailələrinə və müharibə əlillərinə qayğının ildən-ilə artırıldığından danışarkən vurğulayıb ki, sosial islahatlar paketinin tərkib hissəsi kimi, bu il Prezidentin aylıq təqaüdü şəhid ailələri üçün 242 manatdan 300 manata çatdırılıb, müharibə əlilləri üçün də sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, I qrup əlilliyi olanlara (o cümlədən I qrup müharibə əlillərinə) qulluq edənlər və müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis edilib. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı tədbirlərinin gücləndirildiyindən bəhs edən M.Kərimli bildirib ki, ötən il həmin kateqoriyalardan olan vətəndaşlara nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim olunub. Bu il isə azı 800 mənzil verilməsi nəzərdə tutulub və indiyədək artıq 60 mənzil təqdim edilib. Ümumilikdə bu vaxta qədər 6714 mənzil şəhid ailələri və müharibə əlillərinin istifadəsinə verilib.

Nazir müavini ötən il müharibə əlillərinə 265 minik avtomobilinin verildiyini qeyd edərək deyib ki, dövlət başçısının bu il martın 18-də verdiyi Sərəncamı ilə müvafiq kateqoriyadan olan vətəndaşların avtomobillə təminatının gücləndirilməsi məqsədi ilə 5 milyon manat ayrılıb və bu, bu il həmin təbəqədən olanlara verilmək üçün əlavə olaraq 400-dən artıq avtomobilin, beləliklə, 2019-cu ildə nazirlik tərəfindən müharibə əlillərinə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin verilməsinə imkan yaradıb. Onlardan bu ilin ötən dövründə 200 avtomobil təqdim edilib. Bununla da indiyədək 6350-dək minik avtomobili müharibə əlilləri və onlara bərabər tutulanlara verilib.

Yeni minik avtomobili ilə təqdim olunan vətəndaşlar ölkəmizdə geniş vüsət alan sosial müdafiə tədbirlərindən, həssas qrupların rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlardan bəhs ediblər. Onlar diqqət və qayğı ilə əhatə olunduqlarına, avtomobillə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

## *HÜQUQLARIMIZ*

***Sual:** Respublika Veteranlar Təşkilatına dövlətimizin güc orqanlarından təqaüdə getmiş Silahlı Qüvvələr veteranlarından çox saylı suallar daxil olur. Bu sualların səbəbi ondan ibarətdir ki, onlar təqaüdə gedəndən sonra uzun illər bir təcrübəli işçilər kimi müxtəlif sahələrdə işləyərək pensiya kapitalının artırılmasını davam edirlər, amma naməlum səbəbdən onların pensiyaları yenidən hesablanaraq əhəmiyyətli şəkildə artırılmır.*

**Cavab:** "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsində nəzərdə tutulan şəxslər, o cümlədən hərbi qulluqçular üçün pensiyanın təyin olunma şərtləri hesablanma normaları və yenidən hesablanma qaydaları fərqlidir. Bu kateqoriyadan olan şəxslərin xidmət etdiyi orqanlarda fəaliyyətinin xüsusiyyətləri və əhəmiyyəti nəzərə alınaraq, bu Qanunda onların (onlar vəfat etdikdə və ya həlak olduqda əmək qabiliyyətsiz ailə üzvlərinin də) sosial təminatı və müdafiəsi üçün başqa şərtlər və normalar müəyyənləşdirilmişdir. Məsələn, azı 20 təqvim ili hərbi xidmət keçmiş sabiq hərbi qulluqçuların güzəştli şərtlərlə (və ya xidmət illərinə görə) yaşından asılı olmayaraq pensiya almaq hüququ vardır. Onların pensiya hüququ rəsmiləşdiriləndə pensiyanın hesablanması qaydası da tamamilə fərqlidir. Yəni hərbi qulluqçulara iş stajına və fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalına görə deyil (əgər o qaydada hesablanarsa, məbləğ xeyli kiçik olur), hərbi xidmətdən buraxıldığı günə aldıqları təminat xərcliyindən (hətta o təminat xərcliyini bir ay almış olsa belə) hesablanır. Eyni zamanda qanunvericiliklə hərbi qulluqçulara rütbəyə görə maaş və vəzifə maaşından hesablanan digər əlavələr ödənilir. Bu pensiyaların sonrakı artımları da hazırda hərbi xidmət keçən hərbi qulluqçuların təminat xərcliyindən sonrakı artımlara bağlıdır.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunda hərbi qulluqçular üçün təyin olunmuş pensiyanın, pensiyaçının mülkü işlərdə çalışıb qazandığı əmək haqqı üzrə ödənilən sosial sığorta haqlarına görə hesablanaraq artırılması nəzərdə tutulmamışdır. Sabiq hərbi qulluqçu kimi əmək pensiyası alan, vətəndaş fərqli hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalına görə pensiyasını kişilər üçün müəyyən olunmuş yaş həddinə çatdıqda (hazırda 64 yaşdır) hesablatdıra və bu pensiya sabiq hərbi qulluqçu kimi aldığı pensiyadan çox olsa, ondan imtina edib bunu seçə bilər. Lakin fərqli norma və şərtlərlə hesablanmış pensiyaların toplanması bu qanunda mümkün deyil.

Ə.M.Əliyev,
Veteranların sosial müdafiəsi şöbəsinin
aparıcı mütəxəssisi, hüquqşünas,

# Altsheymer riskini azaldan 9 qida



İnsanın təkcə ömür müddəti və fiziki sağlamlığı deyil, həmçinin beyninin sağlamlığı, o cümlədən beynin yaşla bağlı koqnitiv dəyişikliklərə müqavimət göstərmək bacarığı onun hansı məhsullarla qidalanmasından asılıdır.

**Altsheymer xəstəliyi riskini azaltmağa kömək edən 9 qida vərdişini təqdim edirik:**

*Çox yeməyin*

İnsan adətən doyması üçün gərəkli olduğundan 20-30 faiz çox yeyir. Özünüzü qidanı yavaş-yavaş çeynəyərək yeməyə öyrədin. Bu, yemək porsiyasını vizual olaraq böyük göstərəcək, əslində isə qədərində yeməyinizə kömək edəcək. Sağlam çəki təkcə ürək-damar xəstəliklərinin və ya diabetin səmərəli profilaktikası deyil, həm də Altsheymer xəstəliyindən etibarlı müdafiə vasitəsidir.

*Meyvə-tərəvəz yeyin*

Qocalıqda zehninizin aydın qalmağını istəyirsinizsə, gündə beş porsiya meyvə-tərəvəz yeməlisiniz. Təqribən 4 min könüllünün iştirak etdiyi tədqiqat meyvə-tərəvəzin müntəzəm yeyilməsi ilə ahıl yaşlarda koqnitiv qabiliyyətlərin 40 faiz daha yavaş azalması arasında qarşılıqlı əlaqəni təsdiq edib.

*Ədviyyatdan çox istifadə edin*

Xoş qoxulu otlar və ədviyyat yağsız, şəkərsiz və duzsuz yeməklərə dad verir. Onların çoxu xərçəngin, artritin, depressiya və Altsheymer xəstəliyinin inkişafını xeyli azaldan



faydalı antioksidantlarla zəngindir.

*Əti bişirməzdən əvvəl onu basdırma edin*

Əgər qızarmış ət sevirsinizsə, əti qızartmamışdan əvvəl onu ya basdırma edin, ya da soyutmasını hazırlayın. Bu, baş beyində təhlükəli törəmələrə səbəb olan zərərli birləşmələrin qarşısını almağa kömək edir. Əgər qızarmış ətdən imtina edə bilmirsinizsə, onda onu daha təhlükəsiz üsulla bişirin.

*Həftədə bir dəfə yağlı balıq yeyin*

Balıqlar, xüsusilə Şimaldakı soyuq sututarlarda yaşayan balıqlar tərkibində omeqa-3 turşuları olan yağla zəngindir. Omeqa-3 turşuları daxili orqanlarda iltihab proseslərini yavaşıdan çox faydalı birləşmələrdir. Mütəmadi yağlı balıq yemək (həftədə azı bir dəfə) Altsheymer xəstəliyinin inkişaf riskini 60 faiz azaldır.

*Tez-tez qoz-fındıq və tum yeyin*

Qoz-fındıq və tum beyni sağlam saxlayan və Altsheymer xəstəliyinin inkişafı riskini kəskin azaldan selen və E vitamini ilə zəngindir.

*Çoxlu çay için*

Antioksidantların ən əlçatan mənbəyi çaydır. Özü də hansı çaya – qara, yaşıl və ya ulun çayına üstünlük verməyinizin fərqi yoxdur. Onların hamısı damarların zədələnməsinin qarşısını alan və azad radikalların zərərli təsirinə qarşı mübarizə aparan katehinlərlə zəngindir.

*Bu arada qəhvəni də unutmayın*

Hər səhər bir fincan qəhvə Altsheymer xəstəliyinə qarşı mübarizədə sizin gizli silahınızdır. Siçovullar üzərində tədqiqatlar göstərib ki, qəhvə paxlasının tərkibindəki eykozanoil-5-hidroksitriptamid (EHT) deyilən maddə Altsheymer xəstəliyindən müdafiə edir. Yeri gəlmişkən, bir fincan qəhvə yaddaşınızı itiləşdirir, informasiyanı daha yaxşı yadda saxlamağa və səmərəli istifadə etməyə kömək edir.

*Desert yerinə qara şokolad yeyin*

Tərkibində kakaonun miqdarı çox, şəkəri isə olmayan bir neçə şokolad parçası gündəlik normanız olmalıdır. Kakao paxlalarının tərkibində flavonoidlər çoxdur. Onlar beyni sözün həqiqi mənasında cavanlaşdırır, çünki beynin yaddaşa və informasiyanın emalına cavabdeh olan hissəsində – hippokamp nahiyəsində qan dövranını gücləndirir.

## Damarlar üçün ən faydalı məhsul. İnfarktın riskini 50% azaldır

Harvard Universiteti (ABŞ) alimləri balığın ürək-damar sisteminə olan təsirini araşdırıb.

Alimlər sübut edir ki, həftədə 2 dəfə balıq yeməklə ürəyin işemik xəstəliyinin, insult və infarktın riskini 50% azaltmaq mümkündür.




Bunun səbəbi balıqda olan nadir Omeqa-3 yağlı turşulardır. Yağlı turşular damarları daha elastik edir, təzyiqi və xolesterinin səviyyəsini aşağı salır.

Alimlərin fikrinə görə, yağlı əti balıqla əvəz etməklə insan tez bir zamana müsbət effekt hiss edəcək.Mütəxəssislər dəniz balığına üstünlük verməyi tövsiyə edir.

## Bədəndə D vitamini az və ya çox olarsa...

Artıq elmi araşdırmalar sübut edib ki, günəş şüaları bütün canlılar üçün həyat mənbəyidir. Tərkibində olan D vitamini bədəndəki kalsium tarazlığını qoruyur, sümüklərin bərkiməsində köməkçi olur və eyni zamanda xoşbəxtlik hormonu ifrazını artırır. Gün ərzində 15 dəqiqə üz, boyun, qol və ayaqlarınızı günəş işığına tutaraq bədən üçün lazım olan D vitamini ehtiyacını qarşılaya bilərsiniz.

Günəş şüasının bir çox faydaları olduğu kimi çəki atmağa da köməkçi olduğu sübut olunub.

D vitamini əvvəllər yalnız sümük sağlamlığına təsiri ilə tanınan bir vitamin idi. Amma zaman keçdikcə D vitamininin müxtəlif xəstəliklərin müalicəsində istifadə olunduğu sübut olundu. Əsasən Sardina kimi yağlı balıqların və yumurtanın sarısında olan D vitamini bədənimizin 10-20 faizini qarşılayır. Günəş şüaları isə dəriylə birbaşa təmasa girərək 80-90 faizini qarşılaya bilir.




Əgər həddindən artıq çəkiniz varsa, bu, bədəninizdə D vitamini çatışmazlığının olduğu siqnalını verir. Belə olduğu halda hazır pəhriz yeməkləri istifadə etməkdən daha çox həkimə müraciət etməyiniz və ya D vitamini əksikliyini tamamlamağınız məsləhət görülür.

Mütəxəssislər gün ərzində 15 dəqiqə müddətində günəş şüası qəbul etməyi məsləhət görürlər. Bunun üçün ən uyğun saat aralığı isə 10:00-15:00 olduğu qeyd olunub. Həddindər artıq tərləmə, halsızlıq, ishal və oynaq ağrılarınız varsa, bu da bədəndəki D vitamini əksikliyindən xəbər verir. Mütəxəssislər eyni zamanda, həddindən artıq D vitamini qəbulunun zərərli olduğunu da qeyd ediblər. Bu zaman baş gicəllənmələri, ürək bulanma, qəbizlik, ürək ritmində zəifləmə və s. kimi əlamətlər baş verə bilər.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**

**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti Böyük Vətən müharibəsi veteranı, Voronej şəhərinin fəxri vətəndaşı Məmməd Cəbrayılovun vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti Lerik rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun anası Nuridə xanımın vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ağsu rayon Veteranlar Təşkilatı millət vəkili Tahir Kərimliyə qayınatası, əmək veteranı Zərbaliyev Babakişi Əlişirin oğlunun vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*